# Dinlərin Dialoqu, Məzhəblərin Dostluğu və Virtual Aləmdəki Fürsətlər

**Müəllif**: Elnur Dadaşov (Azərbaycan)[1]

**Alınan Tarix**: 01/03/2017 **Qəbul Tarixi**: 30/07/2017

## Məqalənin Xülasəsi

Hamılıqla Allahın ipinə sarılın və prakəndə olmayın. Allahın nemətlərini xatırlayn. Bir-birinizin düşməni olduğunuz vaxt Allah qəlblərinizin arasına ülfət saldı.[2] Həqiqət isə budur ki, başlıca insan haqları epistemoloji və onoloji baxımdan vicdan və xeyir məsələsidir. Bu haqlar insanın etik təbiəti ilə əlaqəlidir. Onlar yazılı qanunlardan, hakimiyyətdən qabaq da mövcud olmuşdur. Yəni, hüquqlar əşyaların təbiətindən, insanın fitrətindən, vicdanın səsindən doğmuşdur... Adəmin ə. övladlarının qissəsində bunu açıq-aşkar görürük. Habil fitrətən dərk etmişdir ki, həyatda olmaq, yaşamaq onun müqəddəs haqqıdır, buna müdaxilə isə aşkar günahdır. Bu səbəbə İslam dini ədaləti meyar götürərək,qeyri islam dininin nümayəndələri və islam məzhəblərinin ardıcılları ilə dostluq və qardaşlıq münasibətlərinin qurulmasına təşviq etmişdir. Hər bir dövrün tələbləri olduğu kimi ,müasir dövründə özünə məxsus tələb və ehtiyacları mövcuddur. Bu ehtiyacları və tələbləri tanımaq və ödəmək hər bir fərdin çiyninə düşən vəzifələrdəndir. Bu səbəbə İmam Sadiq (ə) bizləri yaşadığımız dövrün tələblərini tanımağa səsləyir. Yəni dövrümüzdən agah olmağa səsləyir, yalnız agahlıq nəticəsində qarşılaşdığınız müşküllərlə laiqli mübarizə apara bilərsiniz deyə bir simaric qoyur. Virtual aləm yşadığımız çağdağ dövrün tələblərindən olan, insan həyatının ayrılmaz bir hissəsi kimi desək yanılmarıq. Virtual aləm fikir və düşüncələrin, idioloji məktəb və görüşlərin təlqin vö təbliğ olunduğu bir məkandır. Bizim boynumuza düşən vəzifə, sadəcə çalışmaqdan ibarətdir.

---

1. İslam araşdırmaları fakültəsi magistr, Əl-Mustafa Beynəlxalq Open Universiteti, Qum, İran, elnurrdadasov84@mail.ru

2. Ali İmran-103.

Quran-kərim buyurur: "İnsan çalışdığından artıq heç bir mükafat almayacaq. Amma,öz səylərinin mükafatını tezliklə alacaq."[1] Qurani-kərimin buyurduğu kimi iman və ağıl sahibi bu yolda var gücünü səfərbər edərk ədaləti meyarını pozmayacaq. Necəki, Musa Sədr bu ayənin təfsirində qeyd edir: "Bu meyar, ədalət mövzusunda da sübut olunub. İslama görə ədalətin olması, imanın olmasına bərabərdir. Ədalətin həyata keçməsi üşün səy göstərilməyəndə isə imanın heç bir dəyəri yoxdur. İslam dini, həyatın reallıqlarına əməl etmək dinidir, xəyal və təsəvvür aləminə insanları dəvət etmək, onlara xurafatla yol göstərmək dini deyildir. Hər bir İman və ağıl sahibi firud dinin şərtlərindən sayılan "Əmr be məruf və nəhy əz münkər" prinsipinə riayət etməlidir. Bunun ən gözəl və hamıya xitab edən rahat yolu isə VİRTUAL TƏHSİL-dir.

**Açar Sözlər**: Dinlərin Dialoqu, Məzhəblərin Dialoqu, Dostluğu, Virtual Aləmdəki

## Giriş

Dünyanı cənginə almış, milyonlarla dinc insanların qanını axıtmış, yurdların və obaların didərgin salmış qlobal məsələlərdən ən başlıca səbəblərdən sayılan müxtəliflilikdir.

Yersiz təsübkeşlilik insanlar arasında, rəng, millət, din, məzhəb və cins kimi müxtəlifliy qabardılaraq cəmiyətlər arasında bağların qırılmasına, ictimai asayişin pozulmasına, düşmənçilik tumlarının səpilməsinə gətirib çıxardır.

Bizlər məqalımizdə dinlərin və məzhəblərin dostluğ və qardaşlığ bağlarının mövcudluğuna, Peyğəmbərlırin ilkin misiyalarından biri olduğuna, məxsusən İsalamın bu mövzuya necə əhəmiyyət verdiyinə toxunmuşuq.

1. Nəcm/ 40-41.

İlkin olaraq Ali -İmran surəsinin 103-cü ayəsini qeyd edərək “i'təsəmə” kərimini klassik lüğət alimlərinin qeyd etdiyi mənaları göstərmiş və təfsir alimlərinin fikirlərinidə qeyd etmişik.

İslam məzhəb alimlərinin müxtəlifliyin əlehinə olduğunu öz kəlimələri ilə sübüt etmişik. Həmçinin virtual aləmin dövrümüzün reallıqlarından biri olmasına, dinlər və məzhəblərin dostluğ bağlarının möhkəmlənməsi üçün gözəl bir fürsət olduğunu qeyd etmişəm.

İ'təsamu-nun etimoloji olaraq yapışmaq, tutmaq, sığınmaq, dirənmək, özünü günaha girməsindən uzaqlaşdırmaq kimi mənalar qeyd edimişdir. Rağib İsfahani “Əlmufradat”-ında bağlılıq və sədaqət kimi mənalar qeyd etmişdir.

Xəlil Əhməd Fərahidi “Kitabul Eyn”-ində isə bu kəlimənin antonimi olan qəbul etməmək, tanımamaq, qarşı çıxmaq kimi mənalarını qeyd etmişdir.

Allahin iman əhlinə xas olan bir simaricini bu ayədə görmək mümkündür. Lüğəti mənalarına diqqət etdiyimiz zaman burada bir ipdən yapışmağın təkid edildiyini görmək olar.

Burada söhbət hansı ipdən, ip deyildiyi zaman nə vəya kimlər nə- zərdə tutulur, nə üçün yapışmalı və nə üçün bu göstəriş və təkid məxsusən iman əhlinə şamil olunur?

İp-insanların bir araya toplanmasından ötrü məcazi bir mənadır. Amma həqiqi mənaya gəlincə Əllamə Təbatəbai “Əl-mizanında” ipin Allah və Onun rəsulundan ibarət olduğunu qeyd edir.

Yəni Quran və Peyğəmbərin s. sünnəsi. İnsanlığın səadəti və ya səadətə aparan yol Quran və Rəsulallahın s. sünnəsidir.

Tarix boyu insanlar və ya hər hansısa cəmiyyətlər ixtilaflar ucbatından bir birlərinə düşmən kəsilərək kifayət qədər qanlar axıdıb, şəhərlər viran qoyub və qoymaqda dırlar. Bu ixtilaflara son qoyulmasından ötrü, insanların hüqüqlarının bərpa edilməsindən ötrü, haq və ədalətin öz yerini tapmasından ötrü Allah-Taala daim öz elçilərini göndərmiş, onlar da öz növbələrində məzlumlara yaradım əllərini uzadıb, ixtilaf bağlarını qırıb, insanları bir bayraq altında cəm edib, haqsızlığa qarşı mübarizə səsləmişlər. İman əhlinin ixtılaflara son qoymasında, haqsızlıqla mübarizədə, istər peyğəmbərlərin, istərsədə peyğəmbərlərdən sonra ki dövrlərdə də müstəsna rolu vardır.

Çünki Allah-Taalanin iman əhlinə Qurani Kərimdə xüsusi bir müraciəti yer almaqdadır:

> "Ey iman gətirənlər! İlahi təqvaya layiqli şəkildə Allahdan çəkinin və yalnız müsəlman olaraq ölün".

Ali İmran 102 Qədim xalqlarda ixtilaflardan bezarlıq edərək ictimai vəfdətə doğru səylər etmiş və bunu özlərinə iftixar bilmişlər. İmam Əli ə. Buyurur:

> "Keçən ümmətlərin izzətinin, iftixarının, xöşbəxtliyinin ən böyük amilinin birlik və ittifaq, məğlubiyyətlərinin zillətlərinin, süqutlarının ən üstün amilinin isə təfriqə və ayrılıq olmasıdır".

İraqlı hüqüqşünas Məhəmməd Əhməd Şərif "İslama yeni baxış" əsərində qeyd edir:

> "Bəzilıri iddia edir ki, insan haqları Qərb sosial süurunun səmərəsi olub Qərbli müəlliflərin yaradıcılıq nailiyyətidir.

> ABŞ və Fransa inqilablarındakı qəhraman mübarizəsinin bəhrəsidir. Və bu haqlar BMT-nin 1945-ci il qətnaməsi, 1948-ci il insan Haqları Beynəlxalq Bəyannaməsi və1996-cı il Dövlətlərarası Razılaşma Konvensiyası əsasında beynəlmiləl xarakter kəsb edib."

Yenə qeyd edir:

> Həqiqət isə budur ki, başlıca insan haqları epistemoloji və onoloji baxımdan vicdan və xeyir məsələsidir. Bu haqlar insanın etik təbiəti ilə əlaqəlidir.
> Onlar yazılı qanunlardan, hakimiyyətdən qabaq da mövcud olmuşdur. Yəni, hüquqlar əşyaların təbiətindən, insanın fitrətindən, vicdanın səsindən doğmuşdur.

Adəmin ə. övladlarının qissəsində bunu açıq-aşkar görürük. Habil fitrətən dərk etmişdir ki, həyatda olmaq, yaşamaq onun müqəddəs haqqıdır, buna müdaxilə isə aşkar günahdır:

> Mən istəyirəm ki, sən(məni öldürməklə)mənim də günahımı öz günahınla birlikdə üstünə götürəsən və beləliklə də, Cəhənnəm sakinlərindən olasan. Zalımların cəzası budur!-əl-Maidə-29.

İslamın ilkin dövürlərində ərəb qəbilələri arasındakı hərc-mərclik, iki böyük qəbilələr arasında olan qanlı toqquşmalar mövcud idi.

İslam Peyğəmbərinin s. zühüründan sonra qəbilə ixtilaflarına son qoyaraq, ictimai asayişi bərpa etdi.

İslamın yayıldığı bir dönəmdə, qeyri müsəlmanlarla yəni məsihi, xristian və axır inancların ardıcıllarına əminlikdə yaşaması üçün zəmin yaratdı. Bu məsələyə İslamın nəqədər əhəmiyyət verdiyinə və qoyduğu dərin izə, İsalam Peyğəmbərinin ə. rehlətindən sonra xəlifələrin fəthlər zamanı qeyri müsəlmanlarla olan rəftarları- nda görə bilərik.

Həsən Səffar "İslamda etiqad və vicdan azadlığı" əsərində qeyd edir:

> "Tarix bizə nəql edir ki, xəlifə Ömər Babilyon qalasını tutduqdan sonra kitab əhlinə kilsələrinin qorunması ilə bağlı öz əli ilə saziş yazır və onları kilsədən çıxarmağa məcbur edən hər bir müsəlmanı lənətləyir. Patriarx Benyaminə toxunulmazlığı haqda məktub yazaraq onu on üç illik fasilədən sonra oz vəzifəsinə qaytarir və təntənəli şəkildə qarşılanmasını əmr edir.
>
> Patriarx İsgəndəriyyədən keçəndə Ömərlə qarşılaşərkən ona öz minnətdarlığını bildirir və kilsənin qorunması ilə-bağlı bir sıra təkliflər irəli sürür."

Yenə qeyd edir:

> Abbasi xəlifəsi Mötəsimin ordu başçılarından biri, məcusi məbədinin sökülməsində əlbir olaraq daşlarından onun yerində tikiləcək məscidin inşasında istifadə etdiklərinə görə imam camaatın və müəzzinin şallaqlanmasına əmr etmişdir.
>
> İslamın, qeyri müsəlmanların ayinlərinə olan toxunulmazlığınıda görmək olar. Şeyx Kuleyni Abdullah ibn Sinanın belə dediyini nəql edir.

Bir nəfər İmam Baqirin ə. yanında bir məcusini təhqir edir. İmam Baqir ə. ona deyir: “Sus!” Həmin şəxs İmama:

> “O öz ana və bacısı ilə evlənib, deyincə İmam buyurur:Bu onların dinində evlilik sayılır.”

Həmçinin Məhəmməd ibn Müslim İmam Baqirdən ə. belə nəql edir:

> “Ondan (imamdan) hökmlər haqda soruşdum. O belə buyurdu:(Hər hansı) bir dinə mənsub olanların halal bildikləri (onlar üçün) caizdir.”

Həmçinin qeyri müsəlman alimlərin, islamın tolerant və insan hüqüqlarına ciddi riyayət edən bir din kimi tanımış və öz əsərlərində də qeyd etmişlər. Adam Mets deyir:

> “İslam dövlətinin ərazisindəki kilsə və sinaqoqlar sanki hökümətin idarəçiliyindən kənar bir qurum idi və sanki razılaşma əsasında onlara hüqüq verən dövlətin bir hissəsini təşkil etmirdi.”

Yəhudi və xristianların mü-səlmanlarla qonşu yaşaması təbii zərurət idi. Bu isə Avropanın hələ orta əsrlərdə də anlamadığı tolerantlıq ab-havasının yaranmasına kömək edirdi. Əl-əxbad ən-nəsraniyyə əsərində patriarx kürsüsünə sahib olan İşuyava deyir:

> “Allah -taalanın bütün dünyanı ələ keçirməyə güc verdiyi ərəblər bizimlə bildiyiniz kimi rəftar edirlər. Onlar xristianların düşməni deyillər.
> Əksinə onlar-bizim dinimizi mədh edir, keşişlərimizə hörmət bəsləyir.”

Görkəmli alim Musa Sədr buyurur:

> “İslam görə ədalətin olması, imanın olmasına bərabərdir. Ədalətin həyata keçməsi üçün səy göstərilməyəndə isə imanın heç bir dəyəri yoxdur.”

Bu səbəbə İslam dini ədaləti meyar götürərək, qeyri islam dininin nümayəndələri və islam məzhəblərinin ardıcılları ilə dostluq və qardaşlıq münasibətlərinin qurulmasına təşviq etmişdir.

İmam Əli ə. Malik əştərə yazdığı məktubda buyurur:

> “Tabeçiliyində olan insanlar arasında ədaləti unutma. Çünki onlar sənin ya dində yada ki yaradılışda qardaşındılar.”

Məzhəblər arasında isti münasibətlərin qurulmasında, ixtilafların son qoyulmasında “əhli-sünnə”alimlərinində müstəsna və danılmaz rolu vardır.

Qurtubi Ali-İmran 103-cü ayənin təfsirində buyurur:

> “Allah -Taala dostluğa, birliyə əmr və təfriqəyə qadağan etmişdir. Hansı ki, vəhdət və cəm nicatın, təfriqə və ayrılıq isə həlakın amilidir.”

Təntavi “Təfsirul-mənard”-qeyd edir:

> “Haqq məhvərindən ayrilmayın, çünki, o araniızda istilafların gerçəkləşməsinə səbəb olar.”

Məhəmməd Abduh buyurur:

> “Bəşər arasında ixtilafdan daha zərər verici şey yoxdur.”

Əhli sünnə alimləri özlərini həqiqətə aid etsələrdə, başqalarını həqiqət dairəsindən xaric etməmişlər.

İmam Şafei buyurur:

> Mənim rəyim mənə görə doğrudur, amma yalnışda ola bilər. Başqasının rəyi isə mənə görə yalnışdır, amma doğruda ola bilər.”

İmam Əhməd buyurur:

> “Məzhəb banilərinin və müctəhidlərinin bu kimi istisnalar tşkil edən ehtimallar verməsi həqiqətəndə məsafələri bir növ yaxınlaşdırmış olur.
> Əgər məzhəb alimləri yalnız öz rəylərinin doğruluğunu iddia edib, digərlərinin rəylərini qəti yanlış hessb etmiş olsalar, əlbətdə, bu, məzhəb təəssübkeşliyinə səbəb olacaqdır.”

Əhli-sünnənin müasir alimlərindən sayılan Yusif Qardavi deyir:

> “Üç məsələdə qarşı tərəfi inkar etmək doğru sayılar: Quranda möhkəm(mütəşabeh olmayan) və dəlaləti açıq-aydın olduğu halda.
> Lakin özündə bir neçə məna və ehtimal daşıya bilən ayədə ictihad məqbul sayıldığından alimlərin görüşləri müxtəlif ola bilər.
> Çün ki hər bir alim ayəni pöz ictihadı, şüuru və idrakı müstəvisində araşdırır.”

Həmçinin şiələrin altıncı İmamı Cəfər Sadiq ə. hər hansı bir məsələ ilə bağlı Quran və Sünnəyə müraciət edəndə bu sözləri təkrar edirdi:

> “Hər bir məsələnin hökmü üçün Allahın kitabı və Peyğəmbərin sünnəsin müraciət etmək lazımdır.”

Məhəmmədəmin Rəhim deyir:

> "İslamın ilk dövrlərinə, istər səhabələrin, istər də tabiinlərin həyat tərzinə nəzər salsaq, onların öz aralarında ixtilaflı məsələlərdə birbirlərinə qarşı necə tolerantmünasibət bəslənməsinin şahidi olarıq."

Əsrəm adlı bir nəfər deyir: Əbu Abdullahdan (Əhməd ibn Hənbəldən) bir nəfər soruşur:

> "Əyninə tülkü dərisindən kürk geyinmiş şəxsin arxasında namaz qılmaq olarmı?"

O deyir:

> Əgər tülkü dərisindən kürk geyinmiş şəxs Peyğəmbərin "hansı dəri dabbaqlanarsa, o pak olar"-hədisinə istinad edib tülkü dərisini də ona aid-edərsə, onda namaz qılmaq olar."

Əhməd ibn Hənbələ deyiləndə ki, sən tülkü dərisindən olan kürkü geyinməyi caiz bilirsən?

O isə belə deyərdi:

> "Biz bunu caiz bilmirik, lakin hədisə istinad edib elə başa düşənlərin arxasında namaz qılırıq."

Məzhəb alimlərinin önəm verdiyi məsələlərindən biridə dözümlülük nümayiş etdirərək ixtilaflı məsələrdə orta məxrəcin tapmasıdır. Quran-Kərimdə qeyd olunur:

> "Hər bilındən üstün bir bilən vardır." Yusif-76.

Məzhəb alimlərinin bir araya gəlməsi mənsəb ardıcıllarının dostluq və qardaşlıq bağlarının möhkəmlənməsinə səbəb olar.

Təbii məhzəblərin dostluğu biri digərinin dşüncə və etiqadını qəbul edilməsi demək deyildir.

Necə ki, əhli sünnənin müasir və böyük alimlərindən biri Yusif Qərdavi deyir:

> “Dialoqdan məqsəd kimsənin öz rəyindən imtina edib başqasının rəyini kor-koranə qəbul etməsi nəzərdə tutlmur.
> Əsas məqsəd mənəmlikdən, təəssübkeşlikdən təmizlənərək haqqı haqq oalraq görüb ona təslim olmaqdır.
> Əgər bu müyəssər olmazsa, yenə də məzhəb alimlərinin ixtilafdan çox ittifaq etdiyi və bünövrəcə daha möhkəm olan ortaq dəyərləri vardır.”

İslam mənafeyi və məzhəblər arasında kı qardaşlıq bağlarının möhkəmləndirilməsindən ötrü ciddi addımlar atılmalı və bir məzhəb digər məzhəbin üzərində qələbəsi kimi qiymətləndirilməməlidir.

Hər bir dövrün tələbləri olduğu kimi, müasir dövründə özünə məxsus tələb və ehtiyacları mövcuddur. Bu ehtiyacları və tələbləri tanımaq və ödəmək hər bir fərdin çiyninə düşən vəzifələrdəndir. Bu səbəbə İmam Sadiq ə. bizləri yaşadığımız dövrün tələblərini tanımağa səsləyir.

Yəni dövrümüzdən agah olmağa səsləyir, yalnız agahlıq nəticəsində qarşılaşdığınız müşküllərlə laiqli mübarizə apara bilərsiniz deyə bir simaric qoyur.

Virtual aləm yşadığımız çağdağ dövrün tə- ləblərindən olan, insan həyatının ayrılmaz bir hissəsi kimi desək yanılmarıq.

Virtual aləm fikir və düşüncələrin, idioloji məktəb və görüşlərin təlqin vö təbliğ olunduğu bir məkandır. Virtual aləm, yəni söz aləmi, elə bir sözlər bu aləmdə dövr etməkdədir ki, bu sözlərlə ya baş kəsilir, yada savaş.

Şah İsmail Xətai deyir:

> “Söz var baş kəsir, Söz də var savaş kəsər.”

Bəli virtual aləm sözlərin dövr etdiyi, toqquşduğu və ünsüyyət məkanıdır.

Virtual aləm mədəniyyətlərin, adətlərin, haqq və batil inacların dünyaya çatdırılma məkanıdır. İslamın müasir alimləri virtual aləmdən istifadəni zəruri bilmiş və düzgün dəyərləndirilməsinə səsləmişlər.

Ayətullah Xamaneyi məxsusən gənclərə müraciət etmiş, gəncləri müasir təbliğ maşınından istifadə etməyə səsləmişdir. Virtual aləmdən istifadəsinin əlehinə olan alimləridə görmək mümkündür.

Mürtəza Mütəhərri “Həmaseyi Hüseyn” əsərində qeyd edir:

> “Məsciddə təşkil olunmuş məclislərin birində yeni çıxmış səs gücləndirici avadanlığı gətirirlər, bir neçə vaiz bu avadanlığı, “şeytan avadanlığı”adlandırır.
> Söz növbəsi Mürtəza Mütəhərriyə ç- atdıq da deyir:"şeytan avadanlığını mənə gətirin.”

Yəni hər bir dövrün təlabat və şəraiti vardır, bunlardan istifadə etməmək cəhalətdir.

Virtual aləmin mütləq olmasada nisbi faydaları inkar olunmazdır. Qeyd etdiyimiz kimi virtual aləm söz məkanıdır. Bu məkandan istifadə etməklə dinlərin və məzhəblərin, ictimai və siyasi mədəniyyətlərin dostluğ və qardaşlığını qurmaq olar.

## NƏTİCƏ

Nəticə olaraq bunu qeyd etməm istərdim, Allah Taala buyurur:

> “Əgər Rəbbin istəsəydi, bütün xalqı (məcburi surətdə)vahid bir ümmət qərar verərdi. Onlar halədə ixtilafdadırlar”. Hud -118.

Möhsün Qiraəti bu ayənin təfsirində buyurur:"Qurani-məciddə insanların əqidə seçimində azad olmaları məsələsi dəfələrlə qeyd olunmuşdur.

Allah xalqı doğru yola hidayət etsə də, onlar məcbur olunmur. İslam Peyğəmbərinədə s. xalqı məcbur etmə haqqı verilməmişdir.

> “Sən ancaq öyüd-nəsihət verənsən. Sən onların üzərində hakim deyilsən.” Ğaşiyə-21, 22.

Buna görə də Allah təqva və günah yolunu insanın fitrəti dərk edəcək bir yolla çatdırmışdır. Yolunu əyən insan özüdür.

Bizim boynumuza düşən vəzifə, sadəcə çalışmaqdan ibarətdir. Quran-kərim buyurur:

> “İnsan çalışdığından artıq heç bir mükafat almayacaq. Amma, öz səylərinin mükafatını tezliklə alacaq.” Nəcm/ 40-41.

Qurani-kərimin buyurduğu kimi iman və ağıl sahibi bu yolda var gücünü səfərbər edərk ədaləti meyarını pozmayacaq.

Necəki, Musa Sədr bu ayənin təfsirində qeyd edir:"Bu meyar, ədalət mövzusunda da sübut olunub. İslama görə ədalətin olması, imanın olmasına bərabərdir.

Ədalətin həyata keçməsi üşün səy göstərilməyəndə isə imanın heç bir dəyəri yoxdur. İslam dini, həyatın reallıqlarına əməl etmək dinidir, xəyal və təsəvvür aləminə insanları dəvət etmək, onlara yol göstərmək dini deyildir.

Hər bir İman və ağıl sahibi firud dinin şərtlərindən sayılan “Əmr be məruf və nəhy əz münkər” prinsipinə riayət etməlidir.

Hədisul Şərifdə qeyd edilir:

> "Sizin hər birinizin rəhbərlik məsuliyyəti vardır və bu məsuliyyəti yerinə yetirməlisiniz." Biharul Ənvar, 72-ci cild, səh. 38.

İslam dini, həyatın reallıqlarına əməl etmək dinidir, xəyal və təsəvvür aləminə insanları dəvət etmək, onlara xurafatla yol göstərmək dini deyildir.

Hər bir İman və ağıl sahibi firud dinin şərtlərindən sayılan "Əmr be məruf və nəhy əz münkər" prinsipinə riayət etməlidir.

Bunun ən gözəl və hamıya xitab edən rahat yolu isə VİRTUAL TƏHSİL-dir.

## İstifadə Olunan Mənbələr


1. Quran.
2. Abdul Baqi., **Mu'cəmul Mufhəras lil əlfəzil Quranil Kərim**.
3. Əllamə Təbatəbai., **Əlmizan**.
4. Fərahidi, Xəlil Əhməd., **Kitabul Eyn**.
5. İsfahani, Rağib., **Əlmufradat**.
6. Qiraəti, Möhsün., **Nur təfsiri**.
7. Məhəmməd Şərif Əhməd., **İslama yeni baxış**.
8. Musayev, Rauf (mütərcim), **Nəhcül Bəlağədə əxlaq dərsliyi**.
9. Rəhi, Məhəmmədəmin., **islamda məzhəblərin yaxınlaşma kosepsiyaları**.
10. Sədr, Musa., **Dinlərin insanlara xidməti**.
11. Səffar, Həsən., **İslamda etiqad və vicdan azadlığı**.